# Azərbaycanda təhsilin keyfiyyəti ilə bağlı çox önəmli addımlar atılır, islahatlar aparılır

❒ ***Ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə respublikanın təhsil sistemində də böyük nailiyyətlər əldə olunub. Dahi şəxsiyyət təhsilə daim mühüm önəm verib, məktəb şəbəkəsinin tam formalaşmasını, xalqın intellektual potensialının yüksəlməsini hər zaman diqqət mərkəzində saxlayıb. Məktəb infrastrukturu əsaslı şəkildə yenilənib, dünya təhsilinə inteqrasiya yönündə əsaslı islahatlara yol açılıb. Ümumi təhsil məktəblərinin I-XI sinifləri üçün müasir tələblərə cavab verən milli dərsliklər yaradılıb və tam ödənişsiz olaraq Azərbaycan şagirdlərinə çatdırılıb. Latın qrafikalı əlifbaya keçilməsi ilə əlaqədar qısa zamanda bütün məktəb kitabxanaları yeni əlifba ilə çap olunan dərslik və əlavə vəsaitlərlə təmin edilib.***

**Elə etməliyik ki, bütün uşaqlar savadlı, bilikli olsunlar, gələcəkdə özləri üçün gözəl həyat qura bilsinlər, dövlətimiz üçün dəyərli vətəndaşlar olsunlar. Ona görə, təhsilin keyfiyyəti indi ön plana çıxır. Bu istiqamətdə də islahatlar aparılır.**

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

Ümummilli lider Azərbaycanın gələcəyi olan gənclərin inkişafına, elm və təhsilin tərəqqisinə hər zaman xüsusi qayğı göstərib, bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və respublikamızda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının gerçəkləşdirilməsi məqsədilə əhəmiyyətli tədbirlər həyata keçirib, bu istiqamətdə tarixi əhəmiyyətli fərman və sərəncamlar imzalayıb. Ulu öndərin göstərişi əsasında minlərlə azərbaycanlı gənc dünyanın ən tanınmış universitetlərində təhsil almağa göndərilib.

Dahi lider həm təhsilin məzmunu, mahiyyəti, məqsədləri, səmərəli təşkili, müəllim əməyi, şagirdlərin və tələbələrin vəzifələri barədə dəyərli fikirlər söyləyib, həm də Azərbaycan təhsilinin hərtərəfli yüksəlişi qayğısına qalıb, illər boyu bu sahədə böyük inkişafa təkan verən sistemli tədbirlər reallaşdırıb.

Ümummilli liderin təhsil sisteminin müasirləşməsi ilə bağlı ənənələri son 17 ildir ki, Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Bu sektorda ardıcıl şəkildə gerçəkləşdirilən genişhəcmli islahatlar, dövlət proqramları, layihələr bunun bariz ifadəsidir.

Ölkə Prezidentinin təhsil sektoruna göstərdiyi diqqət və qayğı nəticəsində son illər bu sahədə islahatlar daha da dərinləşib, təhsilin inkişafı dövlət siyasətinin əsas prioritetlərindən biri kimi diqqətdə saxlanılıb. Dövlətimizin başçısının təşəbbüsü ilə reallaşdırılan, təhsil sektorunun yol xəritəsi olan "Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası"nın icrası istiqamətində bir sıra mühüm nailiyyətlər əldə edilib.

Son illər ərzində təhsilin inkişafı ilə bağlı qəbul olunan mühüm strategiya və proqramlar nəticəsində dövlət büdcəsindən bu sahəyə ayrılan xərclər də əhəmiyyətli şəkildə yüksəlib. Belə ki, ötən il 2013-cü ilə nisbətən 60 faizdən çox artaraq, 1,4 milyard manatdan 2,3 milyard manata çatdırılıb. 2003-cü ilə nisbətən isə təhsil xərcləri 9 dəfədən çox artırılıb.

Azərbaycan Prezidentinin diqqət və qayğısı nəticəsində, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə ümumi təhsil müəssisələrinin infrastrukturunun müasirləşdirilməsi istiqamətində əhəmiyyətli işlər görülüb, son 5 ildə 600-dən çox, 2003-2018-ci illər ərzində isə 3500-dən çox məktəb binası tikilib və ya əsaslı təmir edilib. İlk dəfə olaraq ucqar kəndlərdə modul tipli məktəb təcrübəsi reallaşdırılıb.

Təhsil Nazirliyinin Milli Məclislə birgə reallaşdırdığı təhsil qanunvericiliyinin əsaslı şəkildə yenilənməsi ilə bağlı təşəbbüslər də təhsil islahatlarının daha çevik aparılmasına, təhsil sisteminin beynəlxalq təcrübəyə uyğunlaşdırılmasına əlverişli zəmin yaradıb. Belə ki, "Təhsil haqqında" Qanuna 62 dəyişikliyi özündə əks etdirən təkliflər paketi və "Peşə təhsili haqqında" Qanun qəbul olunub. Dəyişikliklər təhsilin bütün pillələrini və səviyyələrini əhatə edib.

Son illərdə Azərbaycanda müəllim peşəsinə ənənəvi hörməti bərpa etmək üçün çox böyük işlər görülüb, dövlət xətti ilə həyata keçirilən xərclər bu sahənin tərəqqisini sürətləndirib. Belə ki, 2015-2018-ci illərdə yeni yanaşma tətbiq olunub – müəllimlərin diaqnostik qiymətləndirilməsi keçirilib. Bu diaqnostik qiymətləndirmədən uğurla keçən müəllimlərin əməkhaqları orta hesabla 2 dəfə artırılıb. Əlbəttə, bu, müəllimlər üçün əlavə bir stimul olub. Eyni zamanda, müəllim peşəsini seçənlərin də sayı buna uyğun şəkildə artıb.

Dövlətimizin başçısı çıxışlarının birində son illərdə müəllimliyə marağın güclənməsinin sevindirici bir hal olduğunu vurğulayaraq deyib: "Bir neçə il bundan əvvəl müəllim olmaq istəyənlərin sayı kifayət qədər az idi. Ancaq son bir neçə ildə müəllim peşəsinə maraq artıb. Çünki müəllimlər indi daha yaxşı maaş alırlar. Onların cəmiyyətdə hörməti yüksək səviyyədədir. İndi onlar gözəl, təmir edilmiş, yenidən tikilmiş məktəblərdə, ali məktəblərdə çalışırlar. Mən hər il tədris ilinin ərəfəsində yeni tikilmiş və təmir edilmiş məktəblərə baş çəkirəm. Hər il bilik günündə də uşaqlarla, müəllimlərlə görüşürəm və qeyd edirəm ki, məktəb, eyni zamanda, müəllimin iş yeridir. Bu gün bu sahədə görülmüş işlər əlbəttə ki, müəllimləri həvəsləndirir. Ona görə təhsilin səviyyəsinin artırılması istiqamətində əlavə addımlar atılmalıdır".






***(ardı 2-ci səhifədə)***

Xalq qəzeti 2020.- 9 sentyabr.- S.1;2.

# Azərbaycanda təhsilin keyfiyyəti ilə bağlı çox önəmli addımlar atılır, islahatlar aparılır

*(əvvəli 1-ci səhifədə)*

Bütün bu tədbirlər vacib strateji fəaliyyət sahəsinin inkişafına güclü təkan verib, ölkə təhsilinin qabaqcıl dövlətlərin təhsil sistemlərinə inteqrasiyasına əlverişli şərait yaradıb. Görülən işlər nəticəsində Azərbaycanın ümumtəhsil müəssisələri Avropa standartlarına uyğunlaşdırılıb. Bu gün əminliklə qeyd edə bilərik ki, respublikamızda istər orta, istərsə də ali məktəblər həm infrastrukturuna, həm də tədrisin səviyyəsinə görə bir çox ölkələri üstələyib. Azərbaycanda məktəb tikintisi ilə bağlı dövlət proqramlarında qarşıya qoyulan mühüm vəzifələr də artıq reallığa çevrilib.

Bu isə respublikamızda təhsilin artıq ümumdövlət işinin tərkib hissəsinə çevrildiyindən xəbər verir. Ölkəmizdə təhsil islahatının uğurla aparılmasını təmin edən mükəmməl normativ-hüquqi bazanın yaradılması, habelə yuxarıda vurğuladığımız kimi, müxtəlif dövlət proqramları və layihələrin gerçəkləşdirilməsi də bunun əyani göstəricisidir.

Yeri gəlmişkən, yeni tədris ili ərəfəsində Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva təzə tikilən, yaxud əsaslı təmir olunan tədris müəssisələrinin açılışında iştirak edir, həmin məktəblərdə yaradılan şəraitlə tanış olurlar. Məsələn, son günlərdə dövlətimizin başçısının paytaxtın Nizami rayonundakı 251 nömrəli tam orta məktəb, ADA Universiteti, UNEC və Yasamal rayonundakı Vaqif Mustafazadə adına 2 nömrəli Uşaq İncəsənət Məktəbi ilə tanışlığı Azərbaycanda pandemiya şəraitində belə təhsilin inkişafına göstərilən diqqət və qayğının parlaq təzahürüdür.

Belə bir vəziyyət, həm də təhsilimizin gələcəyinə nikbinliklə baxmağa əsas verir. Xüsusi qeyd etmək lazımdır ki, dövlətimizin başçısının təhsil sahəsində müəyyən etdiyi proqramlar ümumtəhsil müəssisələrinin təmir və bərpasının, onların ən müasir avadanlıqlarla təchiz olunmasının başlıca istiqamətlərini təşkil edir.

Təhsil Nazirliyindən aldığımız məlumatda bildirilir ki, yeni tədris ilinin əvvəlində bu nazirlik tərəfindən təmir-tikinti işləri yekunlaşdırılan 47 məktəb binası şagirdlərin istifadəsinə veriləcək. Onlardan 8-i yeni tikilən, 5-i əsaslı təmir olunan, 34-ü modul tipli məktəbdir. Cari ilin sonuna kimi isə 100-ə yaxın təhsil müəssisəsi qapılarını şagirdlərin üzünə açacaq.



Ölkəmizdə təhsilin inkişafından danışarkən, bir məqama da diqqət yetirmək istərdik. Bu, modul tipli məktəblərin tikintisi ilə bağlı məsələdir. Belə ki, son illər ərzində respublikada bu tip tədris müəssisələrinin yaradılmasına mühüm önəm verilir. Bu, təsadüfi deyil. Ekspertlər modul tipli məktəbləri ənənəvi təhsil ocaqlarından fərqini onunla əlaqələndirirlər ki, bir ənənəvi məktəbin inşası üçün lazım olan vəsaitlə 10-na yaxın modul tipli məktəb quraşdırmaq olar. Modul tipli məktəblərin yaradılmasının üstünlüyü, həm də onların azməsrəfli olması ilə bərabər, təxminən 1 ay ərzində istənilən relyefdə quraşdırılması, asan daşınması, burada sinif otaqlarının sayının şagirdlərin sayına uyğun olaraq rahatlıqla azaldılıb-artırılması ilə bağlıdır.



Modul tipli məktəblərin digər üstünlüyü isə budur ki, qəzalı vəziyyətdə olan təhsil müəssisələrində təmir-tikinti işləri aparılarkən, tədris prosesi dayandırılmır və bu məqsədlə müvəqqəti olaraq, 50 yerlik səyyar məktəb quraşdırılır.

Bu cür məktəblərin mühüm önəm daşıması ilə bağlı Prezident İlham Əliyev Emin Əmrullayevi Təhsil naziri təyin olunması ilə əlaqədar videoformatda qəbulu zamanı deyib: "Ancaq həllini gözləyən məsələlər də həyatda öz həllini tapmalıdır və burada vaxt itirmək olmaz. Xüsusilə, dağ kəndlərində və ucqar kəndlərdə modul tipli məktəblərin tikintisi layihəsi də yaxın iki il ərzində başa çatmalıdır. İndi bir çox ucqar kəndlərdə bu layihə icra edilir. Kənd sakinləri də, uşaqlar da bundan çox razıdırlar. Bu proqram dövlət büdcəsinin xətti ilə icra edilir və ona görə yenə də deyirəm, bunun tamamlanması 2021-2022-ci ildə başa çatmalıdır. Bununla paralel olaraq, təhsilin keyfiyyəti artmalıdır və artır. Bunu müxtəlif reytinqlər göstərir və əlbəttə, burada əsas məsələlərdən biri müəllimlərin peşəkarlığıdır. Çünki təhsilin səviyyəsi müəllimlərin peşəkarlığından asılıdır. Müəllimlər uşaqları necə öyrədirlərsə, uşaqlar da buna uyğun şəkildə biliklər əldə edirlər".

Dövlətimizin başçısı bütün bunları nəzərə alaraq, 8 avqust 2020-ci il tarixli "Azərbaycan təhsil infrastrukturunun inkişafı ilə əlaqədar əlavə tədbirlər haqqında" müvafiq sərəncam imzalayıb. Həmin sərəncamla respublika ərazisində modul tipli məktəblərin quraşdırılması məqsədilə Təhsil Nazirliyinə yeddi milyon manat vəsait ayrılıb.

Yeri gəlmişkən, ölkə Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə 2016-2019-cu illərdə respublikamızın 45 bölgəsində ümumilikdə 293 modul tipli məktəb quraşdırılıb. Cari ilin sonuna kimi isə daha 60 modul tipli məktəbin istifadəyə verilməsi nəzərdə tutulub.

Modul tipli məktəblərin quraşdırılması ilə bölgələrdə, xüsusilə ucqar kəndlərdə qəzalı və istismar müddəti başa çatan məktəb problemi tamamilə həll olunacaq.

Təhsil infrastrukturunun yenilənməsi istiqamətində Azərbaycanın Birinci vitse-prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun həyata keçirdiyi işləri də xüsusi qeyd etmək lazımdır. Ümumiyyətlə, Heydər Əliyev Fondu bir çox sahələrdə səmərəli layihələr həyata keçirməklə yanaşı, təhsilin inkişafı istiqamətində də mühüm təşəbbüslərlə çıxış edib, bu sahədə genişmiqyaslı işlər reallaşdırıb. Bu baxımdan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramını diqqətə çatdırmaq gərəkdir. 2005-ci ildən icrasına başlanılan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində 100 mindən artıq şagirdin təhsil aldığı 600-dək məktəb binası inşa olunub və yenidən qurulub. Bu məktəblərin hər birində müasir laboratoriyalar, kitabxanalar, yeməkxanalar, ən son avadanlıqla təchiz edilmiş kompüter otaqları, emalatxanalar, idman zalları, geniş meydançalar yaradılıb. Bu proqramda respublikamızın rayon və şəhərlərində yeni məktəb binalarının tikilib istifadəyə verilməsi, təhsil ocaqlarının əsaslı təmiri, maddi-texniki bazasının yaxşılaşdırılması, təhsilin keyfiyyətinin yüksəldilməsi kimi məsələlər öz əksini tapıb və qarşıya qoyulan məqsədlərə müvafiq olaraq həyata keçirilən tədbirlər səmərəli nəticələr verib. Azərbaycanda ali məktəblərin mütləq əksəriyyəti müasir standartlara cavab verir, yeni binalar, korpuslar tikilib, yeni ali məktəblər yaradılıb.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***